UOT 902

DÜRDANƏ YİSİFOVA
t.ü.f.d,
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
durdaneyusifova57@gmail.com

AZƏRBAYCANIN ORTA ƏSR ŞƏHƏR VƏ QALALARINDA APARILAN ARXEOLOJİ TƏDQİQATLARA DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/103/175-179

Azərbaycanın orta əsrlər dövrü Bərdə, Gəncə, Beyləqan, Qəbələ, Şamaxı, Xaraba-Gilan, Şəmkir, Ağsu və digər şəhərlərində aparılan uzun müddətli qazıntı işlərində şəhər və qala probleminin dərindən və hərtərəfli öyrənilməsi məsələlərinin tədqiqi tarixindən bəhs edilir. Hərbi inzibati - əhəmiyyətli şəhər və qalalarda Beyləqan, Şamaxı və Dərbənd, Qəbələ, Bərdə və digər şəhərlərin iqtisadi-siyasi mərkəzlər olaraq fəaliyyətinin tədqiqi tarixinə müraciət olunur.

Açar sözlər: Qala, orta əsrlər, şəhər mədəniyyəti, mədəni təbəqə, arxeoloji qazıntı.

Giriş. Qafqaz arxeologiyasında XIX əsrin 60-70-ci illərindən başlayaraq maddi irsin öyrənilməsinə maraq artmışdır. 1829-cu ildə A.Yanovski Azərbaycanın antik dövr siyasi-mərkəz şəhərlərindən biri olan Qəbələdə kəşfiyyat xarakterli tədqiqatlarında Çuxur Qəbələ yaxınlığında şəhər xarabalığını aşkar etmişdir. 1830-cü ildə F.X.Monpere Düba ticarət əhəmiyyətli orta əsr Şəmkir şəhər yeri haqqında məlumat vermişdir. 1852-ci ildə N.V.Xanıkovun Naxçıvan və Bərdə abidələri ilə bağlı xüsusilə Xaraba-Gilan şəhər xarabalığında tədqiqatlaraparmış, bir neçə daş kitabənin olduğunu qeyd etmişdi. 1879-cu ildə İ.S.Polyakov Naxçıvanda, N.O.Selosani Bərdə şəhər xarabalıqlarını qeydə alıb, sözügedən şəhərlərin arxeoloji mədəniyyəti haqda məlumatları yazıya almışlar. 1896-cı ildə S.P.Zelinski Şamaxı, V.M.Pavlinov Şirvanın və ort əsr Bakı şəhərinin tarixi ilə bağlı araşdırmalar aparmışdır. E.Resler tərəfindən 1899-cu ildə Gəncə şəhərində aparılmış arxeoloji qazıntılarda ilk orta əsr Azərbaycan şəhərlərinin ilkin ictimai- iqtisadi mənzərəsini yaratmışdır (1).

Azərbaycanın şəhər və qalalrında xüsusilədə Mil düzünün arxeoloji abidələrinin öyrənilməsində 1902-ci ildə İ.A.Mayevskinin xidmətləri olmuşdur. Belə ki, Beyləqan ərazisində yerləşən Örənqala şəhər yerinin xarabalıqları haqqında təssüratlarını bölüşmüşdür. İ.İ.Meşşaninov 1933-cü ildə Mil düzündə orta əsr Beyləqan şəhərinin xarabalıqları olan Örənqala şəhərgahının Kiçik şəhər adlanan hissəsinin şimal-şərq və şimal-qərb qala divarlarındakı darvazayanı bürclərdə kəşfiyyat xarakterli qazıntı işləri aparmış, Kiçik sahəyə "Birinci şəhər", Böyük sahəyə "İkinci şəhər" sənətkarlar məhəlləsinə isə "Üçüncü şəhər" adı vermişdir. Apardığı qazıntıları qısa təsvir etməklə Kiçik şəhərin şimal-şərq qala divarlarını üç tikinti dövrünə bölmüşdür (18).

Y.A.Paxomovun tədqiqatları daha çox kəşfiyyat xarakterli olmuşdur. 1935-ci il Şabran şəhər xarabalığında, 1938-ci ildə Tovuz rayonunda yerləşən Torpaqqala şəhər yerində, 1939-1940-cı illərdə isə Bayıl qəsrində ilk qazıntılara rəhbərlik etmişdir (19). Şabran şəhər yeri xarabalıqlarında yerüstü materiallardan olan istehsal çıxarları üzə çıxmış, dulus kürələrinin hissələri, şirli və şirsiz saxsı məmulatlarını qeydə almışdır. Bayıl qəsrindəki kəşfiyyat qazıntıları zamanı, üzərində kitabəsi olan bir neçə daş lövhələr aşkar etmişdir. Torpaqqala abidəsi ilə bağlı mülahizələr irəli sürmüş, abədinin XII-XIII əsrlərə aid şəhərtipli yaşayış yeri olduğu fikri ehtimal edilmişdir. XX əsrin 70-ci illərində Torpaqqala abidəsində R.Vahidov tərəfindən qazıntı işləri aparmışdır.

Orta əsr şəhərlərindən olan Gəncə, Şamaxı və Bakıda şəhər və qalaların tədqiqi ilə bağlı arxeoloji tədqiqatlar aparılmışdır. 1940–1944-ci ildə İ.M.Cəfərzadənin rəhbərliyi, S.M.Qazıyev, V.N.Leviatov, İ.Şeblıkinin iştirakı ilə orta əsr Gəncə şəhər xarabalıqlarında aparılmış qazıntıların nəticələrində orta əsr şəhər memarlığı haqda dolğun məlumatlar verilir (3; 10).

Beyləqan şəhər xarabalıqlarında 1951-ci illərdə İ.M.Cəfərzadənin(3,s.108-138). 1953- 1958-ci illərdə A.A.İessenin rəhbərliyi ilə aparılmış çöl tədqiqatları zamanı Kiçik şəhər və Böyük şəhərin şimal şərq divarlarında, şəhərin sənətkarlıq adlanan III və IV sahələrində əldə edilən nəticələr üzrə

qeydlər edilmişdir (3). 1959-1968-ci illərdə Örənqala ekspedisiyası Q.M.Əhmədovun rəhbərliyi ilə yeni sahələrdə (V-VI sahələr) qazıntılar davam etdirilmişdir. Şəhərin şimal-qərb divarlarının iki tərəfdən bürclərlə əhatələnmiş tikili qalıqları aşkarlanmışdır Bürclərin tikintisində möhrə, çiy və bişmiş kərpiclərdən istifadə edilmişdir. Üz divarı üçün çəkilən bişmiş kərpiclərin ölçüləri 26x26x6 və 27x27x6 sm qeydə alınmışdır (5, s.40-42). IX-X əsrlərə aid anqob zolaqlı qaba, çoxrəngli naxışlarla naxışlanmış şirli və zər naxışlı fayanas "minai " tipli qabların aşkarlandığı qeyd edilir.

Arxeoloji qazıntı işləri sübut edir ki, şəhər-qalaların salınmasında həmişə strateji cəhətdən əlverişli iqlimə malik yerlərə üstünlük verilmişdir. Şəhər ərazisinin müdafiə olunan hissə -İç qalalar (Bala, Narın qala) cəmləndiyi yer-, "Şəhəristan"- böyük ictimai-dini binaların daha çox cəmləndiyi əsas şəhər hissəsini əhatə edirdi (16). Ərazisi baxımdan kiçik məhəlli fərqləri, kiçik yaşayış məntəqələrindən tutmuş şəhərlərə qədər onların planlaşmasında öz əksini tapmışdır. Şəhərlərin ictimai-iqtisadi kateqoriya olaraq inkişafıbəzilərinin dini zəmin əsasında yaranması, digərlərinin isə inzibati mərkəz rolu oynamasından aslı olaraq bir-birinə bağlı olmuşdur.Hərbi inzibati- əhəmiyyətli şəhərlər Beyləqan, Şamaxı və Dərbənd idi (16).Dərbənd şəhərində 1982-ci ildə arxeoloji qazıntılar aparan A.A.Kudryavtsev tədqiqatının nəticəsi olaraq Dərbənd limanının X əsrdə beynəlxalq ticarətdə əhəmiyyətli rolu olduğunu fikrini materiallarla dəqiqləşdirmişdir. Qəbələ, Bərdə, Dərbənd, Paytakaran, Beyləqan, Xalxal, Amaras, Hunan (Xnarakert) bu kimi başqa şəhərlər siyasi mərkəzlər olaraq fəaliyyət göstərmişdir. Arxeoloji tədqiqatlardan əldə olunan maddi-mədəniyyət qalıqlarının tədqiqi göstərir ki, bu şəhərlər sənət və ticarətin inkişafı ilə əlaqədar olaraq, ticarət əhəmiyyətli yollar üzərində salınmış Yaxın və Orta Şərqi Qara dənizdən - Hind okeanı sahillərinədək iqtisadi əlaqələrin gücləndirilməsinə xidmət etmişdir (15).

1959-62-ci illərdə C.A.Xəlilovun Xınıslı arxeoloji ekspedisiyası geniş miqyaslı arxeoloji qazıntı işləri zamanı Gülüstan qalası müdafiə istehkamının qüllələrinin qalıqlarını aşkar etmişdir (7). Xatırladaq ki, Gülüstan qalasının su təchizatı və müdafiə sistemi o cümlədən gizli yolların olması haqqında Y.A.Paxomov 1938-ci ildə mülahizələr irəli sürmüşdür. 1967-ci ildə H.Ciddi qalanın Narınqala hissəsində dörd otaq, dəhlizin divarlarını üzə çıxartmışvə qazıntı sahəsindən əldə edilən şirli, şirsiz qab fraqmentlərindən olan kasa, piyalə, saxsı çıraq, təkqulplu saxsı qablarının Örənqala abidəsindən əldə edilən materiallarla oxşar olduğu qənaətinə gəlmişdir (5).

1989-cu ildə R.M.Vahidov tərəfindən Şirvanın müdafiə qurğularına daxil olan Güngörməz qalasında tədqiqatlar aparılmışdır. İki hissədən ibarət olan müdafiə qalasının birinci hissəsi 4-5 hektar ərazini əhatə edir. Qala yerli əhali arasında Yastı və Yuxarı qala adları ilə iki adda tanınır. Üç divar qalıqları Yuxarı qalada, dörd divar qalıqları isə Yastı qalada müşahidə edilmişdir (17). Şamaxı şəhərinin şimal-şərq hissəsində inşa edilən Buğurd qalasında IX-XIII əsrlərdə aid edilən yaşayışın olduğu müəyyən edilmişdir. Bu qalanı digər qalalardan fərqləndirən cəhət təbii aşırımlarla bir-birinə birləşən silsilələrin olmasıdır. Tədqiqatlarda Buğurd qalasının yerləşdiyi yer Cəngi dağının istiqamətində ön istehkamların olduğu, həmçinin dağın zirvəsində "Şah evi" adlanan Narınqala tipli istehkamın dörd tərəfdən uçurumlu qayalıqlarla əhatələndiyi qeyd edilir (11).

Müdafiə sisteminin möhkəmlənməsinə xidmət edən qalalar sırasına Tərtər çayının başlanğıcında indiki Zar kəndinin yaxınlığında Zar qalası, Kəlbəcərdən bir qədər şərqə doğru Lək qalası, Tutqu çayının Tərtər çayına töküldüyü yerdə sıldırımlı bir zirvədə inşa edilmiş Çomərd qalası və Torağay çayının Tərtər çayına töküldüyü yerdə tikilmiş Çrabert qalaları olduğu qeyd edilir (6;13). Əvvəldə qeyd edildiyi kimi, əksər müdafiə qalaları ilk orta çağlardan başlayaraq IX-XI əsrlərdə dinamik inkişaf mərhələsində olduğu, getdikçə tikinti texnikasının təkmilləşdiyini sübuta yetirir (6; 17).

XX əsrin sonlarında və XXI əsrin ilk onilliklərində dövrünün inzibati-hərbi mərkəzlərinə çevrilmiş həmçinin ticarətin dayaq nöqtələri olmuş iri şəhərlərdə Qəbələ, Beyləqan, Bərdə, Naxçıvan, Şamaxı, Gəncə o cümlədən cənub bölgəsində genişmiqyaslı arxeoloji qazıntı işlərinə başlamışdı. Arxeoloqlarımız tərəfindən Bakıda Ö.Ş.İsmizadənin, F.Ə İbrahimovun,Xaraba-Gilanda Q.M Aslanov, B.İ.İbrahimli, Şamaxıda H.Ə.Ciddinin, Ş.Əhmədovun, A.Quliyevin, Beyləqanda Q.Əhmədovun, Şabranda R.B.Göyüşovun, Qəbələdə S.M.Qazıyevin, Q.M.Əhmədov, F.V. Qədirovun, İ.A.Babayevin, Q.Q.Cəbiyevin, Bərdədə A.B.Nuriyevin, A.M.Məmmədovun, Şəmkirdə T.Dostiyevin rəhbərliyi ilə arxeoloji qazıntılar aparıldı və əldə edilən elmi yeniliklər arxeoloji ədəbiyyatlarda öz əksi tapmış oldu (1; 2).

Ağsu orta əsr şəhər yerində 1983-ci ildən başlayaraq ilkin arxeoloji tədqiqatlar aparılmışdır. Ağsu-İsmayıllı ekspedisiyasının rəhbəri olan professor Q.Q.Cəbiyev 2010-2011-ci illərdə Ağsu şəhər yerində mədəni təbəqənin üst qatında çoxsaylı tikinti qalıqlarını qeydə almış, geniş sahəni əhatə edən daş döşənmiş küçə və meydan qalıqlarını anbar, emalatxana, hamam kompleksi, məscid yerini tədqiq etmişdir. Orta əsr şəhər yerindən çoxlu sayda saxsı nümunələri, şüşə məmulatları, müxtəlif əlvan metaldan hazırlanmış bəzək əşyaları, muncuqlar, inşaat keramikası və.s. maddi mədəniyyət nümunələrinin olduğu vurğulanır. 2014-cü ildə qaıntılar davam etdirilmiş VII qazıntı sahəsindən 7 m dərinlikdə aşkar edilmiş anbar-buzxanadan məişət avadanlıqları; qazan, cam, piyalə və dar boğaz bardaq nümunələri aşkar edilmişdir. Həmçinin anbar-buzxananın cənub tərəfində gümüş pullardan ibarət 21 ədəd sikkə qeydə alınmışdır. Anbar-buzxananın mərkəzi hissəsində qızıl pullardan ibarət dəfinə - 37 ədəd Holland dukatı aşkar edilmişdir. Arxeoloqlarımız tərəfindən Ağsu orta əsr şəhər yerində aparılan arxeoloji qazıntılar sonrakı illərdə də davam etdirilmişdir (2).

2012-ci il qazıntıları zamanıA.M. Məmmədovun rəhbərliyi ilə Gəncə arxeoloji ekspedisiyası tərəfindən Gədəbəy rayondan 100 km cənub-qərbdə yerləşən Qız qalası abidəsini qeydə almışdır. Qala Şəmkirçayın sol sahilində, dəniz səviyyəsindən 1800 m, çay yatağından 500 metrədək hündürlükdə sıldırım qayalıqlarla əhatələndiyi qeyd edilir. Cənub istiqamətdə qalada yeddi bürc, bürclərdən altısı qismən salamat, birinin isə dağılmış vəziyyətdə olduğu və salamat bürclərin hündürlüyünün 20 metr ölçülərdə qeydə alındığı vurğulanır. Qala IX-X əsrlərə aid edilir (14).

A.M.Məmmədov 2013-cü ildə Gəncə arxeoloji ekspedisiyasının Göygöl rayonun Balçılı kəndində ətrafında yaşayış binalarının qalıqları olan IX-X əsrlərə aid edilən Qız qalasında tədqiqatlar aparmışdır. Qala Balçılı kəndindən qərbdə kəndin 10 km-də dağın zirvəsində yerləşdiyi müəyyənləşmişdir. Burda gözətçi bürcləri, həmçinin mağaranın olduğu qeyd edilir (14). Qala inşa xüsusiyyətlərinə görə IX əsrə aid edilir . Əldə olunmuş arxeoloji materiallar XII – XVII əsrlərdə ərazidə intensiv yaşayış olduğunu söyləməyə imkan verir.

Akif Quliyevin rəhbərliyi ilə Şamaxıda Gülüstan qalasının cənub-şərqində qazıntı işləri zamanı şirli və şirsiz qab fraqmentləri, müxtəlif ölçülü və təyinatlı küplər, bardaqlar, ox və nizə ucluqları, əmək və məişət əşyaları tuncdan misdən hazırlanmış bəzək əşyaları mis və gümüş pullar əldə edilmişdi. Tədqiqatlar 2015-ci ildə də davam etdirilmiş, cənub-şərq divarına paralel olan cənub-qərb divarları aşkar edilmişdir. Hər biri 300 kv olan otaqlar, anbar, kazarma, həbsxana təyinatlı olduğu qeyd edilir. Qazıntı sahəsindən çoxlu sayda şirli və şirsiz qablar, şüşə və pastalar muncuqlar, əmək və silah alətləri, daş kitabə, numizimatik materiallar və.s aşkar edilmişdir (12).

Gülüstan adı ilə tanınan daha bir qala Goranboy rayonunun Gülüstan kəndindən iki kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 170 m, ətraf ərazilərdən 200-250 m hündürlükdə olan bir dağın üstündəki yaylada yerləşir. Qala içərisində qala tipli istehkamlar Azərbaycanın bir çox şəhərlərindən məlumdur. Strateji cəhətdən əlverişli, hündür yerdə tikilmiş bu istehkamlar ilk feodal formalı şəhərlər adlanır. Narınqala daxilindəki binalarda feodalların yaxın adamları, məsul idarə məmurları, dini və ictimai xadimlər yerləşdirilirdi (14).

Arxeoloji qazıntılar zamanı aydın olmuşdur ki, bu cür qalalar qala divarının bünövrəsi altında qaya, düz və üfüqi vəziyyətdə olmayıb qərbdən şərqə doğru xeyli mailidir. Tədqiqatlarda qeyd olunur ki, "Bir qayda olaraq şəhər ərazisinin yüksək, yaxşı müdafiə olunmuş hissələrində "İç qalalar" (Narınqala) yerləşirdi. İç qalalarda hökmdarların iqamətgahları, saray kompleksləri olurdu. Divarlarla əhatələnmiş və böyük ictimai dini binaların daha çox cəmləşdiyi "Şəhəristan" şəhərin əsas hissəsi hesab olunurdu (16; 4).

2007-2015-ci illərdə orta əsr Şəmkir şəhər yerində 1hektardan artıq ərazini əhatə edən qazıntı işləri abidənin narınqala və şəhəristan sahələrində aparılmışdır. Şəmkir şəhər yerindəki arxeoloji tədqiqatların əsas istiqamətlərindən biri kimi şəhər istehkamlarının öyrənilməsi işi təşkil etmişdir. Arran memarlıq məktəbinin nadir incilərindən hesab edilən narınqalanın divarlarının ucaldılmasında bişmiş kərpic, yerli ağ daşdan, əhəngli məhluldan istifadə etməklə qarışıq hörgü üsulu tətbiq edilmişdir. Abidədə hələ VIII-XIII əsrlərdən başlayaraq intensiv yaşayışın mövcudluğu IX-XI əsrlərdə isə şəhərin yüksəlişi dövrü olduğu müəyyən edilmişdir (4).

Orta əsrlərdə ərəb mənbələrində Kiran adı ilə elmi ədəbiyyata daxil olan, Ordubad rayonun Aza kəndi ərazisində Gilan çayının sahilində yerləşən şəhər xarabalığında B.İbrahimli tərəfindən təd-

qiqatlar aparılmışdır. Elarasında Xaraba-Gilan adı verilən şəhər xarabalığının narınqala, şəhəristan və rabbad adlanan üç hissədən ibarət olduğu tədqiqatlar zamanı dəqiqləşdirilmişdir (8). Arxeoloji tapıntılar orta əsrlər dövründə bədii sənətksrlığın yüksək səviyyədə olduğunu deməyə imkan vermişdir. Bədii sənətkarlıq istər yaşayış evlərinin, iri ictimai tikililərin, eləcədə dini tikililərin – məscid və türbələrin memarlıq elementlərində öz təsdiqini tapmışdır.

Nəticə. Genişmiqyaslı aparılan arxeoloji qazıntılarda yaşayış yerləri, ictimai binalar şəhər və qalalardan aşkar edilən maddi sübutlarda ilk orta əsrlərdən başlayaraq şəhərlərin iqtisadi özülünü təşkil edən sənətkarlıq və sənətdaxili ixtisaslaşma, iqtisadi və mədəni əlaqələrin olması əksər şəhərlərin mədəni-siyasi və dini mərkəzlərə çevrilməsində başlıca amillərin olduğu öz təsdiqini tapmışdır. Ərəb işğalları zamanı Xilafət dövründən etibarən şəhərlərin rabat hissələrinin inşası və ikiqat qala divarı ilə əhatə olunması haqqında yazılı məlumatlar vardır. Haqqında ədəbiyyatda az məlumat olan və tədqiqata cəlb edilməyən qala-şəhər etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcud olmuşdur. Qala-şəhər etimalogiyası ilə bağlı məsələlərdən biri də ilk orta əsr mənbələrinin verdiyi məlumatlarda adı qala-şəhər Hunan adlandırılan və Qafqaz Albaniyası ərazi vahidliyində göstərilən Alban şəhərlərindən biri olan Hunanın yerləşdiyi ərazi haqqında mübahisəli fikirlərin olmasıdır. Azərbaycanın orta əsr şəhərlərinin tarixinin arxeoloji cəhətdən öyrənilməsi istiqamətində geniş miqyaslı tədqiqat işləri aparılmış olsada onu da qeyd etmək lazımdır ki, qədim və orta əsr yazılı mənbələrində adları çəkilən və koordinatları göstərilən bir sıra Azərbaycan şəhərlərinin yerinin müəyyənləşdirilməsinə boşluqlar qalmaqdadır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə, II c (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608 s.
2. Cəbiyev Q.Q. Azərbaycan arxeologiyasının əsasları. Bakı, Elm və təhsil, 2018, 596 s.
3. Cəfərzadə İ.M. 1951-ci ildə Örənqalada aparılan arxeoloji qazıntı işləri // Tarix və fəlsəfə İnstitutunun əsərləri, IV cild, Bakı, 1954, s.109-138.
4. Dostiyev T.M., Bəşirov R.Y. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı, Çaşıoğlu, 2013, 516 s.
5. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, Elm, 1979, 200s
6. Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993, 83 s.
7. Xəlilov C.Ə. Xınıslı qədim yaşayış yeri // Az.SSR EA Xəbərləri, ictimai elmlər seriyası, Bakı 1961, №3, s.31-47.
8. İbrahimli B. Naxçıvanın orta əsr şəhərləri: Aza (tarixi arxeoloji tədqiqat). Bakı, Avropa nəşriyyatı, 2020, 348 s.
9. İsmizadə Q.Ş., Ciddi H.Ə. Bakı Qız qalası. Bakı, Azərb. Dövlət nəşriyyatı, 1968, 48 s.
10. Qazıyev S.M. Qəbələdə arxeoloji tədqiqatların ilkin yekunları. AMM, VI c. Bakı, 1965, s.151-152.
11. Qədirov F.B. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı, Elm, 1984, 150 s.
12. Quliyev A.A., Hüseynov F.R. 2015-2016-cı illərdə Gülüstan qalasında aparılan arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2017, s.298-303.
13. Mehdiyev Ş.İ. Tərtərçay vadisinin müdafiə qalaları haqqında. Azərb. SSR Elmlər Akademiyasının Tarix İnstitutu Elmi konfransın materialları. Bakı, Elm, 1989, 214 s.
14. Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında). Bakı, "Təknur", 2014, 176 s.
15. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil, 2006, 400 s.
16. Muradov V. Orta əsr Azərbaycan şəhərləri. Bakı, Maarif nəşriyyatı, 1983, 156 s.
17. Yusifova D.S. Azərbaycanın orta əsr qalalarında arxeoloji tədqiqatlar // AMEA A.Bakıxanov adına Tarix İns. Elmi əsərlər, cild: 79. Bakı, 2019, s.102-115.
18. Мещанинов И.И. Краткий осведомительный отчет о работе мильской экспедиции 1933 г. // Труды Азерб. ФАН СССР, т.XXV, Баку, 1936, с.5-31.
19. Пахомов Е.А. Паитакаран- Баилакан- Оранкала / Труды Азербайджанской (Оренкалинской) экспедиции. Т.1. МИА СССР, №67, М.-Л., изд-во АН СССР, с.15-32.

ДУРДАНА ЮСИФОВА
Доктор философии по историческим наукам,
Институт археологии, этнографии и антропологии НАНА

ОБ АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ ПРОВОДИМЫХ В СРЕДНЕВЕКОВЫХ ГОРОДАХИ КРЕПОСТЯХ АЗЕРБАЙДЖАНА

В статье рассматриваются вопросы глубокого и всестороннего изучения города и крепостной проблемы многолетних раскопок, проводившихся в средневековый период в Барде, Гяндже, Бейлагане, Габале, Шамахе, Хараба-Гилане, Шамкире, Агсу и других памятниках затронуты, на основе результатов археологических исследований, проведенных в разные годы, приведены научные результаты.

Ключевые слова: город-крепость, средневековье, городская культура, культурныйслой, исследование

DURDANA YUSIFOVA
Ph.D.,
Institute of Archaeology, Ethnography and Anthropology of ANAS

ON THE ARCHAEOLOGICAL RESEARCH CONDUCTED IN THE MEDIEVAL CITIES AND FORTRESSES OF AZERBAIJAN

In the article, the issues of deep and comprehensivestudy of thecity and fortress problem of the long – termexcavations carriedoutinthe medivel periodin Barda, Gandja, Beylagan, Gabala, Shamakhi, Kharaba-Gilan, Shamkir, Agsu and other monuments were touched upon, based on the results of the archaeological research conducted in different years scientific results are given.

Keywords: city-castle, middle ages, urban culture, cultural class, research.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 may 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Arif Məmmədov, t.e.d. Qüdrət İsmayılov.